

*(Uzun illərdən bəri Azərbaycan torpaqlarına qarşı işğalçılıq siyasəti yürüdən erməni işğalçıları ilə müharibədə misilsiz qəhrəmanlıq göstərən, bütün döyüşlərdə əfsanəvi Mehdi kimi, Həzi Aslanov kimi yenilməz olan qəhrəman generalımız Polad Həşimova ithaf edirəm.)*

**Tofiq Saleh**

# Ey bizim General, bizim Qəhrəman

## Proloq:

Dünən uşaq idi, şən cavan idi,
Bu gün qara saçlar şir tək çal olub.
Dünən çılğın idi, bağrı qan idi,
Bu gün hərbi xadim, "General" olub!

Sənin qüdrətinə baş əyir dağlar,
Sənə bar göndərir bağçalı bağlar,
Yer, göy lərzə gəlir, dindikcə toplar,
Bütün Ermənistan yas tutub ağlar!
Ey bizim General, bizim qəhrəman!

O sənsən, düşmənə min həmlə quran!
O sənsən, düşmənin alnından vuran!
Düşmənin önündə dağ kimi duran
Ey bizim General, bizim qəhrəman!

Əmrinlə yağış tək yağır güllələr,
Əmrinlə boşalır, dolur mərmilər,
Çöllərdə, düzlərdə saysız meyidlər,
Erməni ordusu qalıbdır mələr,
Ey bizim General, bizim qəhrəman!

Sənin hər döyüşün, addımın zəfər,
Düşmənə ölümlə açılır səhər,
Basılmaz qalasan, keçilməz səngər,
Ey bizim General, bizim qəhrəman!

Əzəl gündən qəhrəmanlar yurdusan,
Top dağıtmaz, güllə batmaz ordusan,
Aslanlar yurdunda, sənsən, baş aslan,
Ey bizim General, bizim qəhrəman!

Vətən döyüşündə xidmətinlə sən
Bütün ordenlərlə təltiflənibsən,
Sənin qüdrətinə güvənir Vətən,
Ey bizim General, bizim qəhrəman!

Od əmdin şir kimi ana döşündən,
Dünya heyrətlənir hər döyüşündən,
Səni oxşayıram bu şeirimlə mən,
Ey bizim General, bizim qəhrəman!

Tir-tir titrəyirdi dağ da, dərə də,
O "Talış" postunu azad edəndə!
Ürəkdən şadlanıb, sevindin sən də,
"Azərbaycan"şerini dedin o dəmdə,
Ey bizim General, bizim qəhrəman!

Bütün medalları cürətin aldı,
Vətən məhəbbətin, qeyrətin aldı,
Yenilməz qüvvətin, qüdrətin aldı,
Ey bizim General, bizim qəhrəman!

"Aprel döyüşü"nə dünya baxırdı,
Düşmənin qanları sel tək axırdı,
Bu döyüş, bəlkə də sondu, axırdı,
Bu ölüm dəhşətdi, itki ağırdı,
Erməni milləti qan ağlayırdı.
Zəfər bayrağını qaldıran zaman
Sənə oğlum dedi Odlar ölkəsi!
Şəninə oxundu "Zəfər nəğməsi"!
Ey bizim General, bizim qəhrəman!

Bir qara xəbər də gəldi cəbhədən,
Matəm paltarını geydi el, Vətən.
Bir sonsuz yuxuya getmişdin nədən?
Ey bizim General, bizim qəhrəman!

Yanına düşsə də qartal qanadın,
Sən ölmədin, Vətən oldun, yaşadın!
Ah! Necə möhtəşəm, ucadır adın,
Ey bizim General, bizim qəhrəman!

Vətən var, Sən varsan, var Azərbaycan!
Ölən ölüm oldu, ölmür Qəhrəman!
"Zəfər nəğməsi" tək oxunacaqsan,
Ey bizim General, bizim qəhrəman!